## CLIENT ALERT

**May 30, 2025**

**Amendments to the Code of Administrative Offenses**

Amendments have been made to the Code of Administrative Offenses of the Republic of Azerbaijan (hereinafter – the "Code") concerning the articles that establish liability for violations of labor legislation. These changes are intended to enhance oversight of labor law compliance, regulate employee insurance, and strengthen the enforcement of labor protection standards and regulations. The key amendments include:

• According to the newly added provision to Article 38.1 of the Code, administrative sanctions for violations of labor protection rules and the procedures for investigating and recording occupational accidents may be imposed no later than one year from the date the administrative offense was committed.

• Newly introduced Article 469-1 establishes administrative liability for failure to ensure compulsory insurance against the loss of professional work capacity due to occupational accidents and diseases. Under this article, in accordance with the Law of the Republic of Azerbaijan "On Mandatory Insurance Against Occupational Accidents and Occupational Diseases Resulting in Loss of Professional Work Capacity," failure to insure each employee against such risks, or failure by individuals or legal entities who are obligated to insure these risks to conclude a compulsory insurance contract with the insurer, entails a fine of 1,500 AZN for responsible officials and 5,000 AZN for legal entities.

• The amendment to Article 539.1-1 of the Code introduces administrative liability for failure by parties to labor relations to comply with a mandatory instruction issued by the relevant executive authority overseeing the enforcement of labor legislation. This includes areas such as the conclusion, amendment, and termination of employment contracts; documentation; collective agreements; working conditions; certification of employees and workplaces; working and rest hours; exercise of the right to leave; payment of wages, benefits, and per diems; other payments; employment specifics for women and minors; employee insurance; and labor protection standards. Violations are subject to a fine of 1,000 AZN for responsible officials and 2,000 AZN for legal entities.

• Under newly added Article 539.3 of the Code, failure to submit, or submission of incomplete, inaccurate, or untimely documents or information required under Article 539.1-1 of the Code by the relevant executive authority exercising state control over compliance with labor legislation (excluding cases specified in Article 602.4 of the Code related to on-site inspections in areas of entrepreneurial activity) shall result in a fine ranging from 1,000 to 1,500 AZN for responsible officials and from 2,000 to 2,500 AZN for legal entities.

• As per the amendment to Article 555 of the Code, failure by the employer to report the occurrence of an occupational accident to the relevant executive authority exercising state control over compliance with labor legislation on the day of the accident, or concealing the fact of such an accident, is punishable by a fine ranging from 1,000 to 2,200 AZN. Failure to

draw up the appropriate investigation report within one day after the completion of the investigation or refusal to prepare such a report entails a fine ranging from 1,500 to 2,200 AZN.

**30 may 2025-ci il**

**İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər**

## MÜŞTƏRİNİN NƏZƏRİNƏ

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – Məcəllə) əmək qanunvericiliyinin pozulmasına görə məsuliyyət nəzərdə tutan bir sıra maddələrinə dəyişikliklər edilmişdir. Bu dəyişikliklər əmək qanunvericiliyinə əməl olunmasına nəzarətin gücləndirilməsi, işçilərin sığorta olunmasının tənzimlənməsi, əməyin mühafizəsi norma və qaydaları ilə bağlı əmək qanunvericiliyinə əməl olunması istiqamətində edilmiş aşağıdakı dəyişiklikləri ehtiva edir:

- Məcəllənin 38.1. maddəsinin məzmununa edilən əlavəyə əsasən, əməyin mühafizəsi qaydalarının, istehsalatda baş verən bədbəxt hadisələrin araşdırılması və uçota alınması qaydalarının pozulmasına görə inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci bir il keçənədək verilə bilər.

- Məcəlləyə əlavə edilən 469-1-ci maddə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanmanın təmin edilməməsi ilə bağlı inzibati məsuliyyət nəzərdə tutur. Həmin maddəyə görə "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən hər bir işçinin göstərilən hallardan icbari sığortalanmamasına, o cümlədən müvafiq riskləri icbari qaydada sığorta etdirmək vəzifəsi müəyyən edilmiş fiziki və ya hüquqi şəxslər tərəfindən sığortaçı ilə icbari sığorta müqaviləsinin bağlanmamasına görə vəzifəli şəxslər 1500 manat məbləğində, hüquqi şəxslər 5000 manat məbləğində cərimə edilir.

- Məcəllənin 539.1-1. maddəsinə edilən dəyişikliyə əsasən əmək müqaviləsinin bağlanması, dəyişdirilməsi və xitamının əsasları və sənədləşdirilməsi, kollektiv müqavilənin (sazişin) bağlanması və yerinə yetirilməsi, əmək şəraiti, işçilərin və iş yerlərinin attestasiyasının keçirilməsi, iş və istirahət vaxtı, məzuniyyət hüququnun həyata keçirilməsi, əmək və məzuniyyət haqlarının, ezamiyyə xərclərinin, müavinət və digər ödənişlərin ödənilməsi, qadınların və yaşı 18-dən az olan işçilərin əməyindən istifadənin xüsusiyyətləri, işçilərin sığorta olunmasının tənzimlənməsi, əməyin mühafizəsi norma və qaydaları ilə bağlı əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının icrası məcburi olan göstərişinin əmək münasibətlərinin iştirakçıları tərəfindən icra edilməməsinə görə inzibati məsuliyyət nəzərdə tutulmuşdur. Müvafiq pozuntuya görə vəzifəli şəxslər 1000 manat məbləğində, hüquqi şəxslər 2000 manat məbləğində cərimə edilir.

- Məcəlləyə əlavə edilən 539.3. maddəyə müvafiq olaraq əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının tələbi ilə bu Məcəllənin 539.1-1-ci

maddəsində nəzərdə tutulan hallarla bağlı zəruri olan məlumatların (sənədlərin) təqdim edilməməsinə, yaxud tam, düzgün və ya vaxtında təqdim edilməməsinə (sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə aparılan yoxlamalara münasibətdə bu Məcəllənin 602.4-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) görə vəzifəli şəxslər 1000 manatdan 1500 manatadək məbləğdə, hüquqi şəxslər 2000 manatdan 2500 manatadək məbləğdə cərimə edilir."

- Məcəllənin 555-ci maddəsinə edilən dəyişikliklə işəgötürən tərəfindən istehsalatda baş verən bədbəxt hadisənin baş vermə faktının gizlədilməsinə və ya bədbəxt hadisənin araşdırılması üçün hadisə baş verən gün əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına məlumatın verilməməsinə görə 1000 manatdan 2200 manatadək məbləğdə, bədbəxt hadisənin araşdırılması başa çatdıqdan sonra işəgötürən tərəfindən bir gündən gec olmayaraq müvafiq akt tərtib edilməməsinə və ya aparılan araşdırma barədə müvafiq akt tərtib etməkdən boyun qaçırılmasına görə 1500 manatdan 2200 manatadək məbləğdə cərimə nəzərdə tutulmuşdur.

BHM Newsletter is organized by themes about major legal processes which aim to alert businesses
about significant laws, legislative changes, landmark court decisions and important information about the company.
This material should not be construed as legal advice or legal opinion.

**FOR MORE INFORMATION:**

"SKS" Plaza, 7th floor, 49 Fuzuli Str., AZ1014
T. (+994 12) 4922883
(+994 12) 480 0002
office@bhm.az
www.bhm.az

**© BHM Law Firm LLC. All rights reserved.**